# GENDERƏ HƏSSAS MÜNAQİŞƏ TƏHLİLİ ALƏTİ

BAKI, 2024

**Alət Gülxanım Məmmədova tərəfindən hazırlanmışdır.**

**Bu alətin müəllifə istinad edilmədən hərhansı formada istifadəsi qadağandır. Alət müəllifə məxsusdur. Alətdə istifadə edilən fikirlərə görə müəllifin assosiasiya olunduğu qurumlar məsul göstərilə bilməzlər.**

# MÜNDƏRİCAT

**GİRİŞ** ..... **4**

**ƏSAS ANLAYIŞLAR** ..... **6**

**1. GENDERƏ HƏSSAS SİSTEM TƏHLİLİ** ..... **7**

1.1. Sistem təhlili nədir və necə aparılır? ..... 7

1.2. Sistem təhlili praktikada: münaqişə xəritəsinin mərhələləri ..... 10

**2. GENDERƏ HƏSSAS KONTEKST TƏHLİLİ** ..... **14**

2.1. Genderə həssas kontekst təhlili təhlili nədir və niyə önəmlidir? ..... 14

2.2. Genderə həssas kontekst təhlili necə həyata keçirilir? ..... 16

2.3 Münaqişənin genderə həssas təhlili zamanı regional aspektlərin nəzərə alınması ..... 27

**NƏTİCƏ** ..... **29**

**Ədəbiyyat siyahısı** ..... **30**

# GİRİŞ

Münaqişə və gender arasında əlaqə son 30 il ərzində bir çox araşdırmaların və münaqişə transformasiyası təşəbbüslərinin əsas fokusu olmuşdur. Gender bərabərsizliyinin yüksək olduğu və gender-əsaslı zorakılığın geniş yayıldığı cəmiyyətlərdə adətən zorakılığın digər növlərinin, o cümlədən silahlı münaqişələrin, əhəmiyyətli dərəcədə artdığı müşahidə edilir (Caprioli et al., 2007). Məhz bu səbəbdən istənilən münaqişəli vəziyyətdə gender dinamikalarını anlamaq bu münaqişəli vəziyyətlərin transformasiyasını həyata keçirmək üçün labüddür. Araşdırmalar (Close, 2019; Close, Groenewald and Mora, 2020) göstərir ki, genderə həssas münaqişə təhlili əsasında formalaşdırılan münaqişə transformasiyası addımları daha dayanıqlı olurlar.

Münaqişə təhlilinin genderə həssas formada keçirilməsi artıq beynəlxalq standarta çevrilmişdir. Bu istiqamətdə BMT Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsi (2000-ci il) münaqişə transformasiyası ilə məşğul olan fərdlərin öz təşəbbüslərində genderə həssas yanaşmanı bir normativ halına salmasına xüsusi töhfə vermişdir. Ardınca Təhlükəsizlik Şurasının 1820 (2008-ci il) və 1888 (2009-cu il) saylı qətnamələri 1325 saylı qətnaməsinin bir sıra boşluqlarını doldurmuş, gender-əsaslı zorakılıq və bunun silahlı münaqişələrdəki rolu ilə bağlı qlobal hüquqi müzakirələrin inkişaf etməsində əhəmiyyətli rol oynamışdır.

Ancaq istər akademik cəmiyyətdə, istərsə də münaqişə transformasiyası fəaliyyətləri ilə məşğul olan fərdlər arasında beynəlxalq hüquqi normativ aktların münaqişə və gender arasındakı əlaqəyə baxışı ilə bağlı kifayət qədər tənqidlər var (Dam, 2013; Langdon, 2019; Landaluze, 2019). Bu tənqidlərin əsasında problemə daha səthi baxış, qadın obrazının sistematik şəkildə qurbanlaşdırılması, struktural dəyişikliklərə yol açacaq addımlara çağırış edilməməsi kimi bir sıra məsələlər (Landaludze, 2019) dayanır. Bu tənqidi debatların münaqişə transformasiyası sahəsinə təsirlərindən biri kimi genderə həssas münaqişə təhlilindən gender-transformativ münaqişə təhlilinə keçid qiymətləndirilə bilər (Tielemans, 2015).

Bütün bu debatlar fonunda Cənubi Qafqazda aparılan münaqişə transformasiyası fəaliyyətlərində genderə həssas yanaşmanın tətbiqi xüsusilə son 10 il ərzində bir praktiki standarta çevrilsə də, bu sahəyə yeni daxil olan və yaxud olmağı planlaşdıran şəxslər üçün genderə həssas

münaqişə təhlilinin necə aparılması ilə bağlı lokal dillərdə bilik istehsalı minimal səviyyədə qalmışdır. Gender və münaqişə üzrə ən son və tənqidi araşdırmaların lokal münaqişə transformasiyası ilə məşğul olan fərdlər üçün aşılanması üçün əvvəla bu istiqamətdə sütun xarakteri daşıyan konseptlərin aşılanması vacibdir.

Məhz bu boşluğu doldurmaq üçün hazırlanan bu alətin əsas məqsədi Azərbaycan dilində münaqişə transformasiyası sahəsində fəaliyyət göstərən və yaxud fəaliyyət göstərməyə hazırlaşan şəxslər üçün giriş səviyyədə məlumatlılığı təmin etməkdir. Alət genderə həssas münaqişə təhlilinin aparılması üçün oxucuları və potensial fasilitatorları ikisəviyyəli təhlil konseptləri - a) sistem təhlili və b) kontekst təhlili - ilə tanış etməyi hədəfləyir.

Bu alətin ərsəyə gəlməsi zamanı qarşıya qoyulan hədəflərdən ən əsası alətin azərbaycandilli fasilitatorlar tərəfindən geniş istifadə edilməsini təmin edərək münaqişə transfromasiya təşəbbüslərinin daha dayanıqlı olmasına kömək etmək və həmçinin, lokal münaqişə transformasiya fasilitatorlarının bilik və bacarıqlarının artırılmasına töhfə verməkdir.

# ƏSAS ANLAYIŞLAR

***Gender*** - maskulinlik və femininlik anlayışları əsasında qurulan sosial konstruksiyadır. Müvafiq olaraq maskulinlik kişilərə, femininlik isə qadınlara münasibətdə qoyulan sosial, mədəni və iqtisadi rollar, gözləntilər və davranış normalarıdır (Conciliation Resources, 2015).

***Genderə həssas yanaşma*** - müxtəlif genderlərin spesifik ehtiyaclarını, rollarını və hüquqlarını tanıyan və nəzərə alan yanaşmadır. Genderə həssas olmaq insanları digərlərinə münasibətdə yanaşmanın qurulması zamanı genderin hansı rol oynadığını aşılamaq deməkdir (United Nations library).

***Güc dinamikası*** - bir qrup və ya cəmiyyət arasındakı güc münasibətlərini və onların zamanla necə dəyişdiyini izah edən bir anlayışdır. Bu termin, fərdlər və ya qruplar arasında gücün necə paylandığını, kimin daha çox və ya daha az gücə malik olduğunu və bu güc münasibətlərinin müxtəlif şəraitdə necə inkişaf etdiyini göstərir (Foucault, 1976).

***İnklüzivlik*** - hər kəsin, xüsusilə də marjinallaşdırılmış kimliklərə sahib fərdlərin, mövcud olduqları qrup, cəmiyyət və strukturlar daxilində iştirakının təmin edilməsini özündə ehtiva edir. Bu isə özlüyündə bütün fərdlərin özlərini *Yad* hesab etməyəcəyi mühitlərin formalaşması deməkdir (Brown, 2017).

***İnterseksionallıq*** - müxtəlif güc dinamikalarının - məsələn, etnik kimlik, irq, yaş, sosial-iqtisadi status, din, cinsi orientasiya, coğrafi yerləşmə - necə kəsişməsi və bu kəsişmənin həmin dinamikalara necə məna verməsi deməkdir (Crenshaw, 1989).

# 1. GENDERƏ HƏSSAS SİSTEM TƏHLİLİ

## 1.1. Sistem təhlili nədir və necə aparılır?

Hər bir münaqişə bir sistem içərisində baş verir. Sistem elementlərdən ibarətdir və bu elementlərdən bir neçəsini saymalı olsaq, o zaman münaqişənin baş verdiyi strukturlar, münasibətlər və aktorların adını çəkmək olar. Sistemi formalaşdıran onun daxilindəki elementlərin sistem ilə əlaqəsidir. Məhz buna görə də sistem təhlili münaqişənin hərhansı bir elementinə yox, bütün elementlərin cəminə və bu elementlərin qarşılıqlı əlaqəsinin təbiətini başa düşməyə imkan verir.

Münaqişə menecmenti və münaqişə həlli ilə məşğul olanların əksinə münaqişə transformasiyası ilə məşğul olan fərdlər sistematik dəyişiklik üçün fəaliyyət göstərirlər (CDA Collaborative Learning Projects, 2016). Yəni, onlar etdikləri fəaliyyətlər nəticəsində mövcud olan münaqişə sisteminin transformasiya edilməsini məqsəd kimi görürlər. Bu cür transformasiyanın baş tutması üçün isə mütləq şəkildə həmin sistem daxilindəki **dəyişiləbilən elementləri** müəyyənləşdirmək lazımdır (Tielemans, 2015). Məhz bu elementlər müəyyənləşdiriləndən sonra isə transformasiyaya nail olmaq üçün müvafiq metodologiya seçilir və addımlar atılır.

Sistem təhlili münaqişə transformasiyası fasilitatorları tərəfindən fəaliyyətlərin konseptuallaşdırılması üçün çox intensiv şəkildə istifadə olunan beynəlxalq standart halına düşüb. Özəlliklə, gender və münaqişə anlayışları arasında əlaqəni araşdıran araşdırmaçılar və fasilitatorlar üçün sistem təhlili münaqişəli situasiyanın başa düşülməsində gender dinamikasını daha yaxşı müəyyənləşdirməyə imkan verir.

Genderin sistemdə bir element kimi necə çıxış etdiyini - yəni, gender bərabərsizliyini hansı strukturların formalaşdırdığını, münaqişələrdə gender rollarının hansı güc dinamikasında təmsil olunduğunu və bu güc dinamikasını formalaşdıran strukturları - müəyyənləşdirmək üçün sistem təhlili vacibdir. Sistemi başa düşmək həmçinin güc dinamikasının hansı aktorları sırf gender əsaslı ayrıseçkiliyə məruz qoyduğunu da müəyyənləşdirməyə kömək edir (Körppen, 2o11).

Sistem təhlilinin praktiki cəhətdən aparılmasının bir neçə üsulu mövcuddur. Bunlar arasından həm araşdırmaçılar, həm də fasilitatorlar tərəfindən ən geniş şəkildə istifadə olunan **münaqişə xəritəsidir**.

Münaqişəli bir vəziyyətin xəritələşdirilərək təhlil edilməsi fərdlərə sistemi vizuallaşdırmağa və elementləri, onlar arasındakı münasibətlərin təbiətini aydınlaşdırmağa imkan verir.

Münaqişələr çox vaxt mürəkkəb bir sistem daxilində olduqlarından, xəritələşdirmə prosesi bu mürəkkəbliyi sadələşdirir. Xəritəlişdirmə zamanı münaqişənin fərdlərə olan təsirini başa düşmək üçün genderin etnik kimlik, din, yaş və sinif kimi digər kimliklərlə necə kəsişdiyini nəzərə alınmalıdır. İnterseksional yanaşma sosial kimlikləri ayrı-ayrılıqda nəzərdən keçirmək əvəzinə, bu kimliklərin bir-biri ilə necə kəsişdiyini və fərdlərin həyatına kompleks bir şəkildə necə təsir etdiyini anlamağı vacib hesab edir. Məsələn, bir qadın münaqişə zamanı yalnız genderinə görə deyil, eyni zamanda etnik mənsubiyyəti, sosial sinfi və ya digər faktorlara görə də hansısa çətinliklər yaşaya bilər.

Ancaq eyni zamanda başa düşmək lazımdır ki, münaqişə xəritələri dinamik bir prosesin statik təsviridir. Münaqişə sürətlə inkişaf etdikcə xəritədə əks olunmuş proses köhnələ bilər. Eyni zamanda, münaqişə tərəfləri və onların arasındakı münasibətlər, eyni zamanda güc dinamikaları sürətlə dəyişə bilər. Bu gün hazırlanmış bir xəritə, başqa bir gün tamamilə fərqli görünə bilər.

Növbəti potensial çətinlik isə birbaşa olaraq xəritə tətbiq edənlərin təmsil etdiyi güc dinamikaları, yəni subyektivlikdir. Münaqişə xəritəsini yaradan şəxs və ya qrup problemin vizuallaşdıranda subyektiv yanaşır. Belə ki, xəritələşdirmə nəticələri təhlili kimin apardığına, həmin şəxsin və ya qrupun hansı mənbələrdən istifadə etdiyindən asılıdır. Hər bir vizuallaşdırma özlüyündə bir güc dinamikasının nümunəsidir - bu qərəzləri, stereotipləri, kimlikləri, düşüncə sistemlərini təmsil edir.

# MÜNAQİŞƏ XƏRİTƏSİ NƏ ÜÇÜN ÇƏKİLİR?

## SADƏLƏŞDİRMƏK

Problem çox mürəkkəb görünəndə və ya iştirakçılar onu həll edə bilmədiklərini hiss etdikdə, xəritələşdirilmə əla başlanğıc nöqtəsi ola bilər. Böyük mənzərəni görmək və hər bir tərəfin perspektivlərini nəzərə almaq çox vaxt insanlara problemə yeni bucaqdan baxmağa imkan verir.

## PLAN QURMAQ

Xəritələşdirilmə mümkün müdaxilə nöqtələrini tapmaq və o müdaxilə nöqtələrinin mahiyyətini başa düşmək üçün planlaşdırma aparan zaman ən birinci atılan addımlardan biridir.

## EHTİYACLARI ANLAMAQ

Xəritələşdirilmə münaqişədən təsirlənən tərəflərin ehtiyac və maraqlarını anlamaq üçün istifadə edilir. Xəritə çəkərkən "qarşı tərəf öz ehtiyaclarını necə görür? maraqları nələrdir?" suallarına düzgün şəkildə cavab verilməlidir.

## 1.2. Sistem təhlili praktikada: münaqişə xəritəsinin mərhələləri

Münaqişə sisteminin effektiv xəritələşdirilməsi üçün xəritə özündə aşağıdakı prinsipləri əhatə etməlidir:

- **Aydınlıq** – bütün simvolların, xətlərin və oxların aydın şəkildə işarələnməlidir.
- **Sadəlik** – xəritə doldurulmamalıdır, əksinə ən vacib elementlərə diqqət yetirilməlidir.
- **Yenilənmə** – məlumatlar yeniləkdikçə və münaqişə dinamikası dəyişdikcə xəritəni yenilənməlidir.

Münaqişə xəritələşdirməsi prosesi praktiki cəhətdən aşağıdakı addımlarla izah edilib:

### Addım 1. Problemin müəyyənlişidirilməsi

Böyük bir vərəqdən istifadə edərək vərəqin ortasında bir dairə çəkin və içində münaqişəni (problemi) qeyd edin. Problemin təsviri bütün tərəfləri razılaşacağı obyektiv bir məsələ kimi göstərilməlidir. Əgər problemin təsvirində ortaq bir razılığa gəlinmirsə, onda müxtəlif təsvirlərdən istifadə edilə bilər. Bəzən xəritələşdirilmə prosesi zamanı problemin təsviri daha da aydınlaşır.

Məsələn: *“Sinifdəki uşaqların nadinc olması”* deyil, *“sinifin sakit olmamağı”* qeyd edin.




***Şəkil 1. Xəritədə problemin yerləşidirilməsi***

**Addım 2. Münaqişədə (birbaşa və ya dolayı yolla) iştirak edən və ya təsirlənən bütün tərəflərin müəyyənləşdirilməsi**

Münaqişənin əsas iştirakçılarının kim olduğunu müəyyənləşdirin. Buraya hökümətlər, icmalar, hökümət və qeyri hökümət təşkilatları, vətəndaş cəmiyyəti insitutları və beynəlxalq təşkilatlar daxil ola bilər. Münaqişəyə həm birbaşa, həm də dolayı yolla təsir edə biləcək və təsirlənəcək aktorları göstərin. Münaqişədə iştirak edən aktorlar hansısa məsələlərdə maraq, ehtiyac və narahatlıqları bölüşürlərsə, onlar qruplara birləşdirilə bilər.

Bütün bu aktorların və digər maraqlı tərəflərin siyahısını tərtib edin. Sonra xəritədə kimə daha çox diqqət yetirəcəyinizə qərar verin. Daha sonra onları hər birini təmsil edəcək dairələrə yerləşdirin. Dairələrin ölçüsü aktorların münaqişədəki əhəmiyyətinə uyğun olmalıdır. Belə ki, münaqişə sistemində ən əhəmiyyətli aktorlar nisbətən daha böyük dairələrdə, daha az əhəmiyyətli akorlar isə kiçik dairələrdə qeyd olunmalıdırlar.




*Şəkil 2. Xəritədə aktorların yerləşidirilməsi*

**Addım 3. Münaqişə iştirak edən və ya təsirlənən bütün tərəflərin arasındakı münasibətlərin müəyyənlişdirilməsi**

Bu mərhələdə münaqişə sistemində iştirak edən bütün tərəflər arasındakı münasibətləri aydın şəkildə xətlərlə göstərilir. Xətlərin izahları aşağıdadır.

**Ziqzaq xətt:** tərəflər arasındakı münaqişəni və ya qarşıdurma münasibətlərini göstərir (məsələn, düşmənçilik, müxaliflik).

\/\/\/\/\/\/\/\/\/\/\/\

**Qalın xətt:** güclü, rəsmi və qurulmuş münasibətləri (məsələn, rəsmi birliklər, sıx əməkdaşlıq və s.) ifadə edir.

**Sınıq xətt:** daha zəif, daha az rəsmi və ya müvəqqəti münasibətləri ifadə edir (məsələn, müvəqqəti əməkdaşlıq).

- - - - - - - - - - - - - - - - - -

**Nöqtəli xətt:** neytral və ya əlaqəsiz münasibətləri ifadə edir (məsələn, aktiv dəstək və ya müxalifətin olmaması).

.........................................

**Sınıq nöqtəli xətt:** xarakteri aydın olmayan qeyri-müəyyən bir əlaqəni ifadə edir.

-.-.-.-.-.-.-.-

**Ox işarəsi:** bir tərəfin digərinə təsir və ya dəstək istiqamətini göstərir. Ox nazikdirsə bu təsir nisbətən daha zəifdir, qalındırsa isə güclüdür.

**İkiqat xətt:** bir üzvün digərinə əhəmiyyətli dəstək verdiyi dəstəkləyici bir əlaqəni təmsil edir (məsələn, hərbi yardım, maliyyə dəstəyi və s.).




*Şəkil 3. Xəritədə problem, aktorlar və digər tərəflər arasındakı münasibətlərin* **müəyyənləşdirilməsi**

**Addım 4. Aktor və digər maraqlı tərəflərin ehtiyaclarının müəyyənləşdirilməsi**

Növbəti addım olaraq xəritədə münaqişə aktorlarının və digər maraqlı tərəflərin yanında əsas ehtiyac və maraqları qeyd olunmalıdır.

Məsələn:
- resurslara nəzarət, suverenliyi qorumaq;
- muxtariyyət, resursların ədalətli bölüşdürülməsi;
- sülh, insan hüquqlarının qorunması, bərəbərlik və ikluzivlik;
- bölgənin sabitləşməsi, demokratiyanın təşviqi;
- maddi, psixoloji dəstək və s.

**Addım 6. Xəritənin təhlili**

Münaqişə xəritəsi hazır olduqda geridə onun təhlili qalır. Belə ki, aktorlar və tərəflər arasındakı güc dinamikalarının nümunələri axtarın. Hansı tərəflərin bir-birini dəstəklədiyini müşahidə edin. Münaqişəyə hakim olan güclü ittifaqlar varmı? Məsələn, vətəndaş cəmiyyəti təşkilatları birləşərsə, bu kimə qarşı daha təsirli ola bilər? Daha sonra, əsasən bir-biri ilə toqquşan tərəflərin qruplarını müəyyənləşdirin. Məsələn, hökumət və müxalifət əsas ziddiyyətli qruplar ola bilər və digər tərəflər bu dinamikaya təsir göstərə bilər. Eyni zamanda, burada güc dinamikasının zamanla dəyişib-

dəyişmədiyinə diqqət yetirin. Hər hansı bir aktor güc qazanır və ya itirir? Məsələn, beynəlxalq ictimaiyyətin müdaxiləsi balansın dəyişməsinə səbəb olarsa, bu xarici vasitəçilik yolu ilə potensial həlli göstərə bilər.

Güc dinamikalarını anladıqdan sonra, müdaxilənin ən təsirli ola biləcəyi nöqtə və sahələri müəyyənləşdirin. Başqa sözlə, münaqişəyə təsir və müdaxilə nöqtələri tapmaq lazımdır. Məsələn, hökumət və vətəndaş cəmiyyəti təşkilatları arasında etimadın artması əməkdaşlığın genişlənməsinə səbəb ola bilər. Digər misal nüfuzlu partiyaların başqalarına əhəmiyyətli dərəcədə təsir göstərə bilməsidir. Məsələn, beynəlxalq ictimaiyyət danışıqlar aparmaq üçün həm hökumətə, həm də müxalif qruplara təzyiq göstərə bilərsə, onların rolu əsas təsir vasitəsidir.

Son olaraq, münaqişənin transformasiyası üçün tərəflərin ehtiyac və maraqlarını necə nəzərə ala biləcəyinizi düşünün. Etimad yaratmaq və psixoloji problemləri həll etmək üçün strategiyalar hazırlanmalıdır. Daha əhatəli və ədalətli olması üçün danışıqlar prosesində dəyişikliklər təklif etmək olar. Hər hansı bir təklif ya müdaxilə zamanı müvəqqəti dəyişikliklərə deyil, davamlı, uzunmüddətli həllərə diqqət yetirmək önəmlidir. Buraya iqtisadi inkişaf, siyasi islahatlar və sosial barışıq kimi səylər daxil ola bilər.

# 2. GENDERƏ HƏSSAS KONTEKST TƏHLİLİ

## 2.1. Genderə həssas kontekst təhlili təhlili nədir və niyə önəmlidir?

Əgər sistem təhlili baş verən münaqişəli situasiyanı vizuallaşdıraraq daha yaxşı başa düşməyə və mümkün müdaxilə nöqtələrini tapmağa kömək edirsə, kontekst təhlili bu müdaxilə nöqtələrinin real həyatda həyata keçirilməsi üçün lazım olan situasional və kontekstual reallığı anlamağa kömək edir. Kontekst təhlili sistem təhlilində əldə edilənlərin reallığa çevrilməsində vacib bir məqamdır.

Kontekst təhlili aparılan zaman gender dinamikalarına nəzər bəsit formada aparılmamalıdır. Bir sıra hallarda gender dinamikalarına fokus olunsa da, bu adətən gender münasibətləri haqqında binar fərziyyələrə əsaslanır, məsələn, qadınlar dəstəyə ehtiyac duyan, kişilər isə döyüşçü və cinsi zorakılıq törədən kimi göstərilir. Belə bir kiçiltmə zorakılığa və

bərabərsizliyə səbəb olan geniş sosial-siyasi və iqtisadi strukturların problemlərini həll etməyən addımların formalaşmasına səbəb olur (Cohn, 2013). Məhz bu səbəbdən münaqişələrin transformasiyası üçün hazırlanmış müdaxilələrin böyük bir qismi nadir hallarda münaqişələrə təsir edən gender güc sistemləri - məsələn, münasibətlər, simvolik mənalar və institutlar - haqqında kontekstual gender təhlilini nəzərə alaraq yaradılır.

Genderə həssas kontekst təhlili münaqişəli situasiyadakı müxtəlif gender kimliklərinə sahib fərdlərin müxtəlif ehtiyac və maraqlarını müəyyən etməyə və anlamağa kömək edir. Beləliklə, genderə həssas kontekst təhlili münaqişə transoformasiyası təşəbbüsləri, sülh danışıqları və qərar qəbuletmə prosesləri zamanı qadınların və digər həssas qrupların, o cümlədən vətəndaş cəmiyyəti təşkilatlarının ehtiyac və maraqlarını daha yaxşı anlamağa və nəzərə almağa kömək edir.

Genderə həssas kontekst təhlili eyni zamanda münaqişə transformasiyası səylərində daha böyük iştirak üçün nəyin tələb olunduğunu müəyyən etməyə kömək edir. Məsələn, sistem təhlili edən zaman siz Somalidə qadınların hüquqi-normativ kvotalar hesabına qanunverici prosesə cəlb edildiyinin şahidi olursuz. Somali qanunvericiliyinə əsasən parlamentin 30%-i qadınlardan ibarət olmalıdır. Ancaq kontekst təhlili zamanı məlum olur ki, o iştirakçılıq demək olar real siyasətə çevrilmə ehtimalına sahib deyil, çünki siyasi proseslərdəki yekun qərarları qadınlar yox məhz onların təmsil etdikləri tayfa rəhbərləri (kişilər) verə bilərlər (CDA Learning Objecives, 2016).

*Genderə həssas aparılan kontekst təhlili münaqişənin transformasiya təşəbbüsləri üçün zəruridir, çünki o, münaqişəli situasiyalarda gender dinamikalarının real vəziyyətdə necə işlədiyini başa düşməyə kömək edir.*

Tənqidi məktəbə məxsus tədqiqatçıların gəldiyi qənaət budur ki, ənənəvi münaqişə təhlili, əsasən maskulin təcrübələrə üstünlük verməklə patriarxal strukturları əks etdirir və davam etdirir, anti-patriarxal səsləri və müxtəlif gender perspektivlərini kənarda qoyur (Enloe, 2014; Cockburn, 2007). Bu boşluq təkcə münaqişənin başa düşülməsini təhrif etmir, həm də post-münaqişə şəraitində mövcud olan bərabərsizliyi gücləndirir. Genderə həssas kontekst təhlili səthi inklüzivliyin hüdudlarından kənara çıxaraq, hansı narrativlərin hegemon olduğunu, kimlərin narrativlərinin görünməz olduğunu və bu narrativlərin sülhquruculuğuna necə təsir etdiyini tənqidi şəkildə araşdırır (Tickner, 2001).

Genderə həssas kontekst təhlilinin daxil edilmədiyi post-münaqişə səyləri bəzi səsləri kənarda qoya və transformasiya potensialını məhdudlaşdıran strukturları yenidən yarada bilər. Gender təhlil ediləcək güc kateqoriyalarından biridir və sülh quruculuğunda gender üzərində fokuslanmaq digər güc sistemlərinə müdaxilə nöqtələrini müəyyən etməyə kömək edə bilər.

Nəticə etibarilə, genderə həssas kontekstual təhlil münaqişəni başa düşməni dərinləşdirir, kəsişən təcrübələri ön plana çıxarır və güc dinamikalarının həm zorakılığı, həm də sülh quruculuğunu necə formalaşdırdığını aşkar etməyə kömək edir. Bu yanaşma yalnız inklüziv deyil, həm də sistematik bərabərsizlikləri tənqid edən və həqiqi dəyişikliyi təşviq etməyə qadir olan münaqişə transformasiya strategiyalarının ortaya çıxmasına kömək edir.

## 2.2. Genderə həssas kontekst təhlili necə həyata keçirilir?

Genderə həssas münaqişə təhlili zamanı hər bir addımı daha yaxşı anlamaq üçün aşağıdakı ssenari istifadə olunacaqdır.

**Ssenari:** *iki qonşu kənd, Damlı və Şamlı, Yaşılçay çayına çıxış üzərində münaqişədədirlər. Bu kiçik çay hər iki icma üçün həyati əhəmiyyət daşıyır və suvarma, içməli su və digər məişət ehtiyaclarını təmin edir. Son vaxtlar, iqlim dəyişikliyi və istifadənin artması nəticəsində çayın su səviyyəsi azalıb. Bu da hər iki kənd arasında gərginliyə səbəb olub, çünki hər ikisinin kənd təsərrüfatı fəaliyyətlərini davam etdirmək üçün çay suyuna ehtiyacı var.*

**Bu ssenariyə görə genderə həssas münaqişə təhlili niyə vacibdir?**

*Hər iki kənddə kənd təsərrüfatı və su mənbələrinə çıxış qadınların həyatında əhəmiyyətli rol oynayır. Su azaldıqca, qadınlar su toplama və kənd təsərrüfatı işlərinin artan çətinlikləri ilə qarşılaşırlar. Eyni zamanda, su çatışmazlığı onların iqtisadi vəziyyətini daha çox zərbə altında qoyur.*

*Çaydan istifadə yalnız suvarma üçün deyil, həm də içməli su və digər məişət ehtiyacları üçün də vacibdir. Su çatışmazlığı, su təchizatı və sanitariya ilə bağlı işlərin daha çox qadınlar tərəfindən yerinə yetirildiyi bir regionda, qadınların gündəlik həyatına və sağlamlığına mənfi təsir göstərir. Su səviyyəsinin azalması hər iki kənddəki fərqli gender qruplarını fərqli şəkildə təsir edə bilər. Məsələn, qadınlar daha çox su toplama məsuliyyətini daşıyırsa, bu onların iş yükünü artıracaq və onların digər fəaliyyətlərinə mənfi təsir göstərəcəkdir.*

*Hər iki kəndin su resurslarının idarə olunmasında qadınların iştirak səviyyəsi vacibdir. Əgər qadınlar qərar qəbul etmə prosesində məhdud iştirak edirsə, onların ehtiyacları və perspektivləri nəzərə alınmaya bilər, bu da münaqişənin daha da qızışmasına səbəb ola bilər.*

**Addım 1. Münaqişə iştirak edən və ya təsirlənən tərəflərin genderə görə bölgüsü**

Qadınların və digər genderlərin münaqişədə oynadıqları rolu, münaqişənin onlara göstərdiyi təsiri və ehtiyaclarını anlamaq üçün mümkün olduğu hallarda hər qrupun kişi və qadın aktorları (məsələn, kişi və qadın ictimai liderləri, kişi və qadın QHT-ləri) genderə görə bölmək lazımdır. Müəyyən qrupların (məsələn, qadınların) gücə və qərar qəbul etmə prosesinə daha az çıxışı olub olmadığını göstərin.

<u>**Ssenari üzərində:**</u>

1. **Damlı kəndi**: Çayın yuxarı axarında yerləşən kiçik bir kənd təsərrüfatı icması.
2. **Şamlı kəndi**: Çayın aşağı axarında yerləşən bənzər bir kənd təsərrüfatı icması.
3. **Damlı Qadın Təşkilatı**: Əsasən kənd təsərrüfatı ilə məşğul olan qadınların iqtisadi gücləndirilməsi ilə məşğul olan qrup.
4. **Şamlı Qadın Təşkilatı**: Aşağı axarda yerləşən, su yığımı və kiçikmiqyaslı kənd təsərrüfatı ilə məşğul olan oxşar qrup.
5. **Yerli Hökumət**: Təbii resursların idarə olunmasına və ədalətli paylanmasına cavabdehdir.
6. **Ənənəvi Şura**: Hər iki kəndin münaqişələrinə mədəni ənənələrə əsaslanaraq vasitəçilik edən ağsaqqallar qrupu.
7. **Şamlı Gənclər Təşkilatı**: Müasir kənd təsərrüfatı metodlarını və suya çıxışın artırılmasını müdafiə edən qrup.
8. **Ətraf Mühit QHT-si**: Regionda davamlı su istifadəsini təşviq etmək üçün çalışan bir təşkilat.

**Addım 2. Fərqli genderlərin ehtiyaclarının və münaqişənin onlara göstərdiyi təsirin müəyyənləşdirilməsi**

Fərqli genderlərin ehtiyaclarının və münaqişənin onlara göstərdiyi təsirin müəyyənləşdirilməsi üçün aşağıdakı suallara cavab verin.

*Cədvəl 1. Fərqli genderlərin ehtiyaclarının və münaqişənin onlara göstərdiyi təsirin müəyyənləşdirilməsi üçün suallar*

| Sual | Cavab |
|---|---|
| 1. Münaqişə tərəfləri kimlərdir? Bu tərəflər daxilində qadınlar hansı rolları oynayır? | |
| 2. Münaqişə zonasındakı əhalinin gender demoqrafiyası necədir? | |
| 3. Münaqişə kişilərin, qadınların, oğlan və qızların təhlükəsizliyinə və təhlükəsizliyinə necə fərqli təsir göstərib? | |
| 4. Qadınlar və qızlar üçün xüsusi təhlükəsizlik və qorunma məsələləri nələrdir? | |
| 5. Münaqişənin qadınların dolanışığına, sağlamlığına və təhsilinə necə təsiri var? | |
| 6. Qadınların və qızların gender əsaslı zorakılıqdan qorunması üçün mövcud olan mexanizmlər hansılardır və onlar nə dərəcədə səmərəlidir? | |
| 7. Qadınlar və qızlar sülh danışıqlarında və | |

| | |
|---|---|
| münaqişənin həlli proseslərində hansı səviyyədə iştirak edirlər? | |
| 8. Qadınların liderlik və qərar qəbul etmə proseslərində iştirakı necə təşviq edilə bilər? | |
| 9. Qadınların və kişilərin ehtiyaclarını fərqləndirmək üçün hansı metodlar istifadə edilə bilər? | |
| 10. Münaqişədən təsirlənmiş qadınlar üçün xüsusi ehtiyaclar və prioritetlər hansılardır? | |
| 11. Humanitar yardım proqramları qadınların və qızların xüsusi ehtiyaclarını necə qarşılayır? | |
| 12. Qadınlar və qızlar üçün təhlükəsiz və əlçatan humanitar yardım xidmətləri necə təmin edilə bilər? | |
| 13. Qadınların iqtisadi resurslara və bərpa proqramlarına çıxışı necə təmin edilə bilər? | |

| | |
|---|---|
| 14. Qadınların iqtisadi gücləndirilməsi və dayanıqlı dolanışıq imkanları necə təşviq edilə bilər? | |
| 15. Qadınlar sülh danışıqlarında və münaqişə həlli proseslərində iştirak edirlərmi? | |
| 16. Qızların təhsil və peşə bacarıqlarının gücləndirilməsi üçün hansı proqramlar lazımdır? | |
| 17. Gender həssaslığını təmin etmək üçün monitorinq və qiymətləndirmə prosesləri necə qurulmalıdır? | |
| 18. Qadınların münaqişə və sülh proseslərinə təsirini qiymətləndirmək üçün hansı göstəricilər istifadə edilə bilər? | |
| 19. Münaqişədən təsirlənmiş qadınlar və uşaqların reinteqrasiyasını dəstəkləmək üçün hansı | |

| | |
|---|---|
| xüsusi proqramlar lazımdır? | |
| 20. Münaqişədən sonrakı bərpa səyləri gender bərabərliyini necə təşviq edə bilər? | |
| 21. Bərpa prosesində gender əlaqələrini dəyişdirmək və qadınları gücləndirmək üçün hansı imkanlar var? | |

Daha sonra münaqişə iştirak edən və ya təsirlənən bütün tərəflərin gender spesifikliyini nəzərə alan məlumatları xəritəyə daxil etmək lazımdır. Xəritədə qadınlara aid olan və ya təsir edən münasibətləri qeyd edin (məsələn, qadın QHT-lərinin yerli icmalarla əlaqəsi). Genderə həssas əlaqələri göstərmək üçün fərqli rənglər və ya xətlərdən istifadə edin.

Xəritədə münaqişənin kişilərə, qadınlara və digər genderlərə necə fərqli təsir etdiyinə dair şərhləri qeyd edin. Məsələn, hökumətin müəyyən bir siyasəti qadınlara nisbətsiz dərəcədə təsir edirsə, bunu xəritədə qeyd edə bilərsiniz.

**<u>Ssenari üzərində:</u>**

***Cədvəl 2. Ssenari üzərində münaqişə tərləfin ehtiyacları***

| Tərəf | Ehtiyacları |
|---|---|
| Damlı kəndi | - Suvarma və məişət istifadəsi üçün çaya daimi çıxış.<br>- Suya əsaslanan ənənəvi kənd təsərrüfatı təcrübələrini qorumaq. |
| Şamlı kəndi | - Xüsusilə quraqlıq mövsümündə aşağı axarda kifayət qədər su təminatı.<br>- Həm kənd təsərrüfatı, həm də gündəlik ehtiyaclar üçün suya çıxış. |

| | |
|---|---|
| Damlı Qadın Təşkilatı | - Kənd təsərrüfatı fəaliyyətləri üçün suya daimi çıxış.<br>- Su istifadəsi ilə bağlı qərar qəbul edən proseslərdə iştirak. |
| Şamlı Qadın Təşkilatı | - Məişət istifadəsi üçün təmiz suya çıxış.<br>- Resursların idarə edilməsində daha çox söz sahibi olmaq, xüsusən də qadınların su yığımı ilə bağlı əlavə yükünü nəzərə alaraq. |
| Yerli Hökumət | - Münaqişənin qarşısını almaq üçün resursların ədalətli paylanması.<br>- Davamlı su idarəetmə təcrübələrinin tətbiqi. |
| Kənd Şuraları | - Mədəni normalara əsasən münaqişələrin vasitəçiliyi.<br>- Hər iki kənd arasında sülhü qorumaq.<br>- Ənənəvi təcrübələri qorumaq, hansı ki, çox vaxt qadınların qərar qəbul etmədən kənarda qalması ilə nəticələnir. |
| Şamlı Gənclər Təşkilatı | - Müasir suvarma metodları üçün dəstək.<br>- Yerli idarəetmədə təsirin artırılması, çox vaxt ənənəvi şuranın səlahiyyətlərini sınağa çəkməklə.<br>- Qərar qəbul edən proseslərdə gender bərabərliyi üçün təşəbbüskarlıq. |
| Ətraf Mühit QHT-si | - Davamlı su istifadəsinin və mühafizənin təşviqi.<br>- Qadınların və kənarlaşdırılmış qrupların resursların idarə edilməsində gücləndirilməsi.<br>- Münaqişənin idarə olunması üçün icma əsaslı həllərin həyata keçirilməsi. |

## Addım 3. Güc dinamikasının və münasibətlərin təhlili

*Cədvəl 3. Ssenari üzərində münaqişə tərəflərləri arasındakı münasibətlər*

| Tərəflər | Münasibət |
|---|---|
| Damlı kəndi & Şamlı kəndi | **Rəqabət**<br>Tərəflər çay suyu üzərində nəzarət üçün rəqabət aparırlar. Şamlı Damlının su resursunu həddindən artıq istifadə etdiyi barədə ittihamlar irəli sürür. |
| Damlı kəndi & Şamlı kəndi Qadın təşkilatları | **Potensial əməkdaşlıq**<br>Hər iki qrup su çatışmazlığı ilə bağlı çətinliklərlə üzləşir və genderə həssas siyasətlər tələb etmək üçün birgə əməkdaşlıq etməyə hazırdırlar. |
| Yerli Hökumət & kəndlər | **Məsuliyyət** |

| | |
|---|---|
| | Hökumət münaqişəni ədalətli şəkildə həll etmək üçün təzyiq altındadır, lakin bir kəndə üstünlük verildiyi təqdirdə digər kənd tərəfindən tənqidə məruz qala bilər.<br>**Əməkdaşlıq**<br>QHT ilə davamlı təcrübələrin tətbiqi üçün əməkdaşlıq edir, lakin hər iki kəndin bərabər şəkildə qərar qəbul etmə prosesinə daxil olmasında çətinlik çəkə bilər. |
| Kənd Şuraları & Qadın Təşkilatları | **Münaqişə**<br>Kənd Şuraları qadınların daha çox təsir sahibi olmaması üçün dəyişikliklərə müqavimət göstərir, bu da gərginliklərə səbəb olur.<br>**Müzakirə**<br>Qadın Təşkilatları daha çox iştirak üçün təzyiq göstərməyə və ənənəvi gender rollarını qırmağa çalışırlar. |
| Şamlı Gənclər Təşkilatı & Kənd Şuraları | **Münaqişə**<br>Gənclər Qrupu, xüsusən müasir kənd təsərrüfatı praktikaları və gender bərabərliyi ilə bağlı mövzularda Kənd Şurasının səlahiyyətlərini sorğulayır. |
| Ətraf Mühit QHT-si & kəndlər | **Əməkdaşlıq və münaqişə**<br>QHT davamlı təcrübə və maarifləndirmə imkanları təmin edir, lakin eyni zamanda qadınların iştirakını dəstəkləyir, bu da ənənəvi rəhbərliklə münaqişəyə səbəb olur. |

**Addım 4. Boşluqlar və imkanların müəyyənləşdirilməsi**

Qadınların az təmsil olunduğu və ya ehtiyaclarının nəzərə alınmadığı sahələri müəyyənləşdirin. Daha sonra gender həssaslığını və gender əsaslı müdaxiləri harada inkişaf etdirə biləcəyinizi təhlil edin. Xəritədə qadın qrupları və digər aktorlar arasında potensial əməkdaşlıq nöqtələri qeyd edin.

**Ssenari üzərində:**

"Yaşılçay çayı münaqişəsi" ilə bağlı potensial müdaxilə sahələrini təhlil etmək, aktorların ehtiyaclarını, mövcud münasibətləri və gender dinamikasını nəzərə alaraq potensial müdaxilə strategiyaları aşağıdakılar ola bilər:

1. **Birgə su idarəetməsinin gücləndirilməsi:**

Müdaxilə: Hər iki kəndin qadınları və gənclərindən də ibarət Birgə Su İdarəetmə Komitəsinin yaradılması. Bu komitə su

istifadəsinin kəndlər arasında balanslı olmasını təmin edəcək, və beləliklə gərginliyi azaldacaq. Qadınların və gənclərin daxil edilməsi müxtəlif perspektivlərin nəzərə alınması təmin edəcək və onların ehtiyaclarını nəzərə almağa kömək edəcək.

Gender həssaslığı: Komitə eyni zamanda qadınların bərabər iştirakını təmin edəcək, onların ehtiyac və narahatlıqlarının qərar qəbul etmə prosesinə daxil edilməsini təmin edəcək.

2. **Davamlı su təcrübələrinin təşviqi:**

Müdaxilə: Hər iki kənd üçün Ətraf Mühit QHT-si tərəfindən keçirilən **Davamlı Suvarma Texnikaları** üzrə təlim sessiyaların təşkil olunması, xüsusi olaraq qadınlar və gənclər üçün. Bu təcrübələr suyun israfını azaltmağa və səmərəliliyi artırmağa kömək edəcək, resurs çatışmazlığının əsas problemini həll edəcək. Qadınlar və gənclər çox vaxt su çatışmazlığının ağır yükünü daşıyır, ona görə də onların iştirakı vacibdir.

Gender həssaslığı: Təlimləri qadınların kənd təsərrüfatında üzləşdiyi spesifik çətinlikləri (məsələn, texnologiyaya çıxış) nəzərə alaraq uyğunlaşdırmaq və onların resurslara və dəstəyə bərabər çıxışını təmin etməyə kömək edəcəkdir.




*Şəkil 5. Ssenari üzərində münaqişəsinin xəritələşdirilməsi*

## 2.3 Münaqişənin genderə həssas təhlili zamanı regional aspektlərin nəzərə alınması [1]

Müşahidələr göstərir ki, regional amillərin münaqişələr zamanı gender həssaslığına böyük təsiri var. Cənubi Qafqaz kimi regionda hər bir bölgənin xüsusi ənənələri, sosial strukturları var, bunlar da icmalar daxilində gender rollarına təsir edir. Hətta iki qonşu kənd etnik, dini, məzhəbi və ya tarixi keçmişlərinə görə gender rolları ilə bağlı müxtəlif baxışlara və strukturlara sahib ola bilər. Belə vəziyyətlərdə, xüsusilə silahlı münaqişələr zamanı, fərqli icmalar müxtəlif cür təsirlənir. Məsələn, bilirik ki, birgə yaşama təcrübəsi olmayan icmaların münaqişənin digər tərəfini insanlıqdan çıxarma ehtimalı daha yüksəkdir, halbuki keçmişdə dinc birgəyaşayış təcrübəsi olan icmalar üçün bu ehtimal daha aşağıdır.

Müxtəlif bölgələrdə münaqişələrdən təsirlənən icma daxilində gender rolları bu hekayənin digər tərəfidir. Ümumiyyətlə, silahlı münaqişələrin icmalarda gender rollarının strukturunu qütbləşdirdiyi və cəmiyyətin patriarxal strukturunu gücləndirdiyi məlumdur. Bunun səviyyəsi də bölgələrə və onların etnik, dini, məzhəbi və ya tarixi keçmişinə görə müxtəlifdir. Nəticə olaraq, münaqişələr zamanı gender həssaslığının dinamikasını anlamaq üçün paytaxt şəhərlərinin və mərkəzlərin sosial strukturu müxtəlif bölgələrdə eyni şəkildə tətbiq oluna bilməz: ona görə də icmanın sosial keçmişini araşdırmaq vacibdir. Belə ki, münaqişənin genderə həssas təhlili zamanı regional aspektlərin nəzərə alınması prosesi, münaqişənin təsirlərinin və onun həlli yollarının daha ədalətli və təsirli şəkildə idarə olunmasına imkan verir. Bu prosesdə, regionların fərqli sosial, mədəni, iqtisadi və siyasi xüsusiyyətləri nəzərə alınmalıdır. Bu təhlil zamanı aşağıdakı amillərə diqqət yetirmək vacibdir:

**M**üxtəlif regionların özünəməxsus mədəniyyətləri və adətləri vardır. Bu mədəniyyətlər, gender rollarını və gözləntilərini formalaşdırır və bu da münaqişə zamanı kişilərin və qadınların fərqli təcrübələrinə səbəb olur.

**R**egionlarda fərqli iqtisadi və sosial şərait gender bərabərsizliyini daha da dərinləşdirə bilər. Məsələn, bir regionda qadınların iqtisadi asılılığı daha çox ola bilər, bu da münaqişə zamanı onların daha çox risk altında qalmasına gətirib çıxarır.

[1] Bu alt bölmə regional ekspertlə aparılmış müsahibə əsasında yazılmışdır.

**R**egionun tarixi və cari etnik və dini tərkibi.

**U**rbanizasiya səviyyəsi, paytaxtdan uzaqlıq və cari və ya əvvəlki təmas xətti.

**M**ünaqişə zamanı regionun siyasi iqlimi və güc strukturları da genderə təsir göstərir. Müxtəlif regionlarda qadınların siyasətdə iştirak səviyyəsi və bu iştirakın necə məhdudlaşdırıldığı münaqişənin həllinə təsir edə bilər.

**R**egionlar arasında təbiət resurslarının mövcudluğu və istifadəsi ilə bağlı fərqlər də genderə təsir göstərir. Məsələn, kənd təsərrüfatına bağlı olan regionlarda qadınlar daha çox əziyyət çəkə bilər, çünki münaqişə zamanı torpaq resurslarına çıxış məhdudlaşır.

**R**egionun yaş strukturu; savadlılıq və təhsil səviyyəsi. Münaqişə zamanı müəyyən regionlarda qaçqın və köçkünlərin sayı müqayisədə daha çox ola bilər. Bu şəraitdə qadın və qız uşaqlarının hüquqları və təhlükəsizliyi daha çox risk altında olur.

**M**üxtəlif regionlarda təhsil və səhiyyə xidmətlərinə çıxış imkanları fərqli ola bilər. Münaqişə zamanı bu fərqlər gender əsaslı ayrı-seçkiliyin artmasına səbəb ola bilər.

**A**dambaşına düşən mülki və hərbi itkilər.

**H**ərbi xidmətdə olan insanların sayı.

**Ssenari üzərində:**

Damlı və Şamlı kəndləri arasındakı regional aspektləri də nəzərə alacaq münaqişənin genderə həssas təhlilini aparmaq üçün aşağıdakıları nəzərə almaq lazımdır:

Damlı və Şamlı kəndlərində suyun istifadəsi və gender rolları ilə bağlı mədəni normalar da nəzərə alınmalıdır. Bu normalar münaqişənin və onun həll yollarının necə qəbul olunduğuna təsir edə bilər. Məsələn, bir kənd digərindən daha mühafizəkardırsa, Kənd Şurası həm qadın iştirakçılığına, həm də onun nəticəsində ola biləcək mümkün pozitiv dəyişikliklərə qarşı çıxa bilər. Bu halda münaqişə transformasiyası ləngiyə bilər.

# NƏTİCƏ

Münaqişə transformasiyası təşəbbüslərinin dayanıqlı və effektiv olması üçün genderə həssas təhlil mütləqdir. Bu alət oxucuları bu təhlilin aparılması üçün ikisəviyyəli təhlil konseptləri ilə tanış etdi. Sistem təhlili baş verən münaqişəli situasiyanı vizuallaşdıraraq, sistemi təşkil edən elementləri müəyyənləşdirməyə və mümkün müdaxilə imkanlarınını tapmağa şərait yaradır. Digər tərəfdən kontekst təhlili isə imkan verir ki, real praktikada hazırlanan münaqişə transformasiyası təşəbbüsləri həyata keçiriləcək lokal kontekstə uyğun hazırlansın.

Həm sistem təhlili, həm də kontekst təhlili genderə həssas aparılmadığı təqdirdə transformativ potensiallarından məhrum olurlar. Gender özlüyündə bir güc dinamikası olduğundan onun istənilən münaqişəli situasiyadakı roluna nəzər salmadan sistematik transformasiyaya nail olmaq mümkün deyil. Bundan məhrum təhlillər və addımlar mütləq şəkildə münaqişəli situasiyanı yaradan strukturların yaşamını davam etməsinə və mütəmadi şəkildə bir çarxtək təkrarlanmasına gətirib çıxarır. Belə münaqişə transformasiya addımları transformativ prosesə nail ola bilmir və demək olar ki, yerlərində sayırlar.

Dünyada gender, güc və zorakılıq üçbucağı üzərində araşdırmaların sayı həm kəmiyyət, həm də keyfiyyət baxımdan artmaqdadır. İstər akademik cəmiyyətlərdə, istərsə də sülhquruculuğu ilə məşğul olan icmalarda bu üçbucaq daxilindəki əlaqəni başa düşmək üçün hər keçən gün daha tənqidi debatlar aparılır. Cənubi Qafqazda, xüsusilə Azərbaycanda, münaqişə transformasiyası addımlarının dayanıqlı və effektiv olması üçün lokal fasilitatorların bu debatların tərkib hissəsi olması və o debatlardan çıxan nəzəri-empirik nəticələri öz addımlarına inteqrasiya etmələri vacibdir. Bu alət o debatların bir qismini azərbaycandilli fasilitatorlar üçün lokal dildə əlçatan edərək bu məqsədə töhfə vermək üçün hazırlanıb.

# Ədəbiyyat siyahısı


Brown, A. (2017). *Inclusion and social change: Examining marginalization in contemporary society*. Social Dynamics Press.

Caprioli, M., et al. (2007). The impact of gender inequality on conflict and violence. *International Studies Quarterly*, 51(2), 485-510.

Center for Security Studies (CSS), ETH Zurich. (n.d.). *Conflict Analysis Tools*. Available at: https://css.ethz.ch/content/dam/ethz/special-interest/gess/cis/center-for-securities-studies/pdfs/Conflict-Analysis-Tools.pdf

Close, S. (2019). Gender-sensitive conflict analysis: Building sustainable peace. *Conflict Resolution Quarterly*, 37(2), 215-228.

Close, S., Groenewald, H., & Mora, C. (2020). Gender and conflict transformation: A framework for analysis and action. *Journal of Peacebuilding and Development*, 15(3), 48-61.

Close, Sophia, Groenewald, Hesta, & Trimiño Mora, Diana. (October 2020). *Gender-Sensitive Conflict Analysis: A Facilitation Guide*. Saferworld. Available at: https://www.saferworld-global.org/resources/publications/1284-gender-sensitive-conflict-analysis-a-facilitation-guide

Conciliation Resources. (December 2015). *Gender and Conflict Analysis Toolkit for Peacebuilders*. Conciliation Resources. Available at: https://www.c-r.org/resource/gender-and-conflict-analysis-toolkit-peacebuilders

Conciliation Resources. (October 2020). *Gender-Sensitive Conflict Analysis Facilitator's Guide*. Conciliation Resources. Available at: https://www.c-r.org/learning-hub/gender-sensitive-conflict-analysis-facilitators-guide

Cohen, C. (2013). *Gender and Violence in Conflict and Post-Conflict Situations*.

Cockburn, C. (2007). *The Space Between Us: Negotiating Gender and National Identities in Conflict*.

Crenshaw, K. (1989). Demarginalizing the intersection of race and sex: A Black feminist critique of antidiscrimination doctrine, feminist theory, and antiracist politics. *University of Chicago Legal Forum*, 1989(1), 139-167.

CDA Collaborative Learning Projects (2016). *Conflict transformation: Theories and practice*. Cambridge University Press.

Dam, K. (2013). International legal frameworks and gender in conflict: A critique. *European Journal of International Law*, 24(3), 711-736.

Enloe, C. (2014). *Bananas, Beaches, and Bases: Making Feminist Sense of International Politics*. University of California Press.

Foucault, M. (1976). *The History of Sexuality, Volume 1: An Introduction*. Pantheon Books.

Körppen, D. (2011). Understanding the gender dynamics in conflict and post-conflict societies. *Peace and Conflict Studies*, 18(1), 50-69.

Langdon, S. (2019). Gender, conflict, and legal frameworks: Critiques and challenges. *International Feminist Journal of Politics*, 21(4), 444-459.

Landaluze, X. (2019). The structural critique of gender and conflict studies: Examining blind spots. *Gender and Development*, 27(2), 215-230.

Tielemans, H. (2015). Gender-transformative conflict analysis: Moving beyond sensitivity to transformation. *Conflict Transformation Review*, 8(2), 32-47.

Tickner, J. A. (2001). *Gendering World Politics: Issues and Approaches in the Post-Cold War Era*. Columbia University Press.

United Nations Department of Political and Peacebuilding Affairs (UN DPPA). (2017). *Guidance on Gender and Inclusive Mediation Strategies*. UN DPPA. Available at: https://www.un.org/shestandsforpeace/sites/www.un.org.shestandsforpeace/files/guidance_on_gender_and_inclusive_mediation_strategies.pdf

United Nations. (n.d.). *Gender-sensitive approaches: Normative and practical guidelines*. United Nations Library.



BAKI, 2024